AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**İSMAYIL AKİF OĞLU İSMAYILOV**

# AZƏRBAYCAN SSR BEYNƏLXALQ HUMANİTAR ƏLAQƏLƏR SİSTEMİNDƏ (XX ƏSRIN 80-CI ILLƏRI)

**İxtisas: 5503.02 –«Vətən tarixi»**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

**Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir.**

Elmi rəhbər:
Tarix üzrə elmlər doktoru **S.A.SAYADOV**

Rəsmi opponentlər:

tarix üzrə elmlər doktoru, professor **N. C. MEHDİYEVA**

tarix üzrə fəlsəfə doktoru **Ə. B. ƏLƏKBƏROV**

**Aparıcı təşkilat: Sumqayıt Dövlət Universiteti "Azərbaycan tarixi (humanitar ixtisaslar üzrə) və tarixin tədrisi metodikası" kafedrası**

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013-cü il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "_25___" ___10____ 2014-cü il tarixli iclasında, saat____ $^{00}$ da olacaqdır.

**Ünvan: AZ-1148, Bakı şəhəri, Z. Xəlilov küçəsi 23.**

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

**Avtoreferat "_____"__________________** 2014-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor S.Y.SÜLEYMANOVA**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Bəşəriyyətin keçdiyi tarixi inkişaf yolu göstərir ki, dövlətlərin, millətlərin, xalqların yaşayıb-yaratması, insanların yüksək mənəvi keyfiyyətlərə əsaslanan tərəqqisi, beynəlxalq əməkdaşlıq, xalqlar arasında həmrəylik kimi yüksək prinsiplərə əsaslanır. Eləcə də, onların ictimai həyatda bərqərar olması şəraitində dünyada sülh mümkün olmuşdur. Bu qanuna uyğunluq dünyanın ictimai həyatında gedən bütün sosial-iqtisadi, ictimai-siyasi proseslərə təsir edərək, tarixin hər bir inkişaf mərhələsində öz həlledici rolunu oynayır. Eyni zamanda, mövcud olan ölkələr, fəaliyyət göstərən regional və beynəlxalq təşkilatların, onların rəhbərləri arasında etimad və qarşılıqlı anlaşma proseslərinin inkişafı üçün, geniş şəraitin yaranmasına ciddi təsir edir. Mühüm beynəlxalq və bəşəri əhəmiyyəti olan məsələlərin həllində ümumi dil tapmağı asanlaşdıraraq, xalqların özünü tam mustəqil bir beynəlxalq subyekt kimi dərk edərək, milli qapalılıq hallarının tam aradan qalxmasına geniş yol açır. Bu da tədqiqatımızın aktuallığını göstərən əsas amillərdəndir.

Göstərilən beynəlxalq bu proses bütün inkişaf mərhələlərində dünya dövlətlərinin mövcud potensialına əsaslanmışdır. Həmin sahədə gedən ümumdünya işində hər dövürdə, hər bir xalqın əməli fəaliyyəti əhəmiyyət kəsb edir. Bu gün isə Azərbaycan müstəqil dövlətdir. Həyata keçirilən iqtisadi, siyasi, mədəni islahatlar respublikamızın inkişafına və beynəlxalq arenada özünə layiq yerini tutmasına şərait yaratmışdır. Bunun əsas səbəbi ondan irəli gəlir ki, siyasətimiz hər zaman milli maraqlar üzərində qurulmuş, göstərilən istiqamətdə Azərbaycan Respublikasının milli dəyərləri, siyasi, iqtisadi, mənəvi potensialı hər zaman mövcud olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevində dediyi kimi, «Bizim tariximizin hər bir dövrünü subyektivlikdən tamamilə kənar, olduğu kimi təsvir və əks etdirməliyik. Biz onu gələcək nəsillərə olduğu kimi çatdırmalıyıq. Təhrif xalqa həmişə zərər gətiribdir. Heç vaxt xeyir verməyibdir». Bu prinsipdən yanaşaraq, tədqiqatda sovet tariximizin bir hissəsi olan, XX əsrin 80-ci illəri siyasi, iqtisadi, mənəvi və ideoloji siması tədqiq və təhlil edilərək, tam surətdə yeni dövrün tələblərinə uyğun olaraq, elmi ictimaiyyətin nəzər diqqətinə təqdim edilməlidir. Çünki, həmin istiqamətdə əldə edilən təcrübə, tarix və elmi cəhətdən çox maraqlı və əhəmiyyətlidir.

XX əsrin 80-ci illərində Azərbaycan SSR-nin dünyada baş verən ictimai-siyasi proseslərdə iştirakı və həmin istiqamətdə əldə edilən təcrübənin elmi cəhətdən, müasir tarixi nöqteyi-nəzərdən tədqiqi həm də

müasir dövrdə Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində müstəqil bir subyekt kimi iştirakı ilə də sıx surətdə bağlıdır.

XX əsrin 80-ci illərində, Azərbaycanın dünyanın ictimai-siyasi proseslərindəki iştirakını və onun genişlənib inkişaf etməsi üçün göstərdiyi beynəlxalq fəaliyyətinin əsas yönlərinin tədqiqi və Azərbaycanın dünyada sülh ideyalarının həyata tətbiq olunması uğrunda apardığı mübarizədə humanitar əlaqələrin hansı istiqamətlərdən və o sahədə cəmlənmiş potensialının hansı formalrından istifadə etməsidə çox maraq kəsbedir.

Tədqiq edilən dövrdə Azərbaycan SSR xarici siyasəti keçmiş SSRİ-nin tərkibində olduğu bir şəraitdə həyata keçirildiyindən, özünün Konstitusiyada göstərilən hüquqlarından tam istifadə edə bilməmiş və ciddi maneələrə rast gəlmişdir. Bu səbədən maneələrin və nöqsanların açıqlanması, onların səbəblərinin aydınlaşdırılması və müstəqillik şəraitində aradan qaldırılması yollarının göstərilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, müasir dövrdə gedən humanitar proseslər, şübhəsiz ki, əldə edilmiş təcrübəyə arxalanaraq, həmin sahədə qazanılmış müvəffəqiyyətləri və çatışmamazlıqları əks etdirərək, buraxılan səhvləri nəzərə alır, onların təkrarına yol verilməsinin qarşısını alır. Eyni zamanda, beynəlxalq humanitar əlaqələr sistemində hökm sürən təsirli üstünlüklərdən faydalanmağa şərait yaradaraq, Azərbaycanın dünya dövlətləri ilə humanitar sahədə əməkdaşlığının əsas formalarını, istiqamətlərini və mahiyyətini açıb göstərməklə, bu istiqamətdə gələcəkdə aparacağı işi təkmilləşdirməyə imkan verir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Mövzunun adından göründüyü kimi dissertasiyanın xronoloji çərçivəsi XX əsrin 80-ci illərində Azərbaycanın beynəlxalq humanitar əlaqələr sistemində iştirakı tarixini əhatə edir. Tədqiqat obyekti kimi, seçilən dövr Azərbaycanın sovet dövrü tarixidir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Dünya ictimai həyatı tarixinin inkişaf yolu göstərir ki, beynəlxalq aləmdə gedən bu və ya digər proseslər tariximizin bütün inkişaf mərhələlərində, ictimai elm nümayəndələrinin daim diqqət mərkəzində olub. Əsərin tarixşünaslığının təhlili göstərdi ki, ictimai elmlərin bütün sahələrində beynəlxalq münasibətlər probleminin tədqiqi istiqamətində mühüm nailiyyətlər olmuşdur. Tədqiq olunan 80-ci illərdə və eləcə də əvvəlki dövrlərdə də, Ümumittifaq səviyyəsində yazılmış çox ciddi tədqiqat əsərlərində SSRİ-nin beynəlxalq aləmdə apardığı işlərin bütün sahələri təhlil və şərh edilir, ayrı-ayrı sahələrdə göstərilən fəaliyyət, təcrübə ümumiləşdirilir və işıqlandırılır. Ölkə alimlərinin beynəlxalq problemlərə həsr olunmuş bu əsərlərində Sovet dövlətinin xarici siyasətinin mahiyyəti, prinsipləri, strateji araşdırmaları, elm və texnika sahəsində əməkdaşlığın xarakterləri və istiqamətləri,

mədəniyyət və digər sahələrdə mövcud əlaqələrin əsas məğzləri, forma və metodları elmi cəhətdən təhlil edilir və şərhi həmin dövrün siyasi və idealoji xüsusiyyətlərinə uyğun verilir. SSRİ-nin xarici siyasətinin ümumi prinsiplərinin mahiyyəti, məzmunu geniş və hərtərəfli göstərilir. Həmin fəaliyyətin xüsusiyyətlərinin, təsir dairələrinin gələcək inkişaf yollarının müəyyənləşdirilməsinə cəhd göstərilib.

XX əsrin 80-ci illərində dünyada iki ictimai-siyasi quruluşa malik dövlətlər sistemi: sosialist və kapitalist sistemi mövcud idi. Odur ki, ictimai elmlərin nümayəndələri də, öz tədqiqat işlərində bu faktorları nəzərə alaraq əsərlər yazmışlar.

Həmin illərdə sovet dövlətinin sosialist sistemi ilə və ayrı-ayrılıqda həmin sistemə daxil olan ölkələrlə yaranmış siyasi, iqtisadi, ideoloji, mədəni, humanitar əlaqələrin təhlilinə, xarakterinə, forma və məzmunlarına həsr olunmuş bir çox fundamental əsərlər çapdan çıxmışdır.

Tədqiq etdiyimiz dövrdə beynəlxalq aləmdə bərqərar olmuş tarixi münasibətlərin öyrənilməsi, şərh edilməsi işi, o dövrdə Sovet İttifaqının tərkibində olan respublikalarda da, geniş miqyas almışdı. Bu problemin öyrənilməsi sahəsində, o illərdə keçmiş sovet respublikalarında çalışan tarixçilərin, filosofların və digər ictimai elm nümayəndələrinin diqqət mərkəzində olmuş və bir çox maraqlı əsər yazılib nəşr edilmişdir. Həmin tədqiqat işlərində yerli materiallar əsasında maraqlı faktlara istinad edərək, müəlliflər ayrı-ayrı xarici ölkələrlə ictimai həyatın müxtəlif sahələrində olan xarici əlaqələri işıqlandırmış, eləcə də, namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmişdir.[1]

Azərbaycanın ictimai elmlərinin nümayəndələri də, o dövrdə respublikanın beynəlxalq fəaliyyətini diqqət mərkəzində saxlamışlar. Beynəlxalq münasibətlərin bu və ya digər sahələrinə həsr olunmuş namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmiş, kitablar, elmi məqalələr çap etdirilmişdir. Bu sahədə yazılmış, çap olunmuş və ümumiləşdirilmiş əsərlərdən: A.N.Bağırov, S.A.Sayadov, H.A.Hacıyev, L.R.Cəlilova, A.M.Atakişiyev, E.M.Mirzəyev, Ə.N.Bağırov, E.Ə.Məmmədova, E.S.Sayadov, M.Q.Qurbanov, B.R.Nəcəfov,

---

1. Вельзман Д.М. Социалистические международные отношения (Очерки системного исследования). М.: Наука, 1981. 105 с.; Кузьмин Э.Л. Вопросы демократии и борьба идей на международной арене. М.: 1984, 200 с.; Лебедкина Е.Д. Наука и международное сотрудничество. М.: 1983, 305 с.; Рыжков В.А. Советско-английские отношения (основные этапы истории). М.: Международные отношения, 1987, 296 с.; Багиров А.Н. Азербайджан в международных экономических связях Советского государства на современном этапе (1971-1985 гг.). Автореферат дисс.кандидата исторических наук. М., 1991, 23 с.

A.A.Məmmədov, K.A.Hüseynov, Q.K.Qurbanov, O.S.Sayadov, İ.A.Şükürov, M.C.Qasımov, Ş.C.Şükürov, S.M.Seyidovanın və digər müəlliflərin əsərlərini qeyd etmək olar[1]

Göstərilən elmi tədqiqatların bir qismində Azərbaycanın iqtisadi potensialının dünya təsərrüfatı əlaqələrində oynadığı rolundan, digərlərində respublikanın beynəlxalq mədəni əlaqələrinin ayrı-ayrı məsələləri və onun dünya mədəniyyətinin inkişafına təsiri problemləribdən, bir sıra əsərlərdə isə elmi-texniki fikrin beynəlxalq miqyasa çıxmasından və onun dünya elmi-texniki fikrinin geniş inkişafına təsirindən, zamanın əsas problemləri olan sülh və müharibə təhlükəsinə qarşı aparılmış mübarizədə Azərbaycan xalqının iştirakından bəhs edir. Lakin bu əsərlərdə Azərbaycan SSR-nin XX əsrin 80-ci illərindəki beynəlxalq humanitar əlaqələr sistemində iştirakı tam və ümumi şəkildə, bütünlüklə tədqiq olunmamışdır.

M.Q.Qurbanov öz əsərini[2] Sovet dövlətinin 80-ci illərdə beynəlxalq sülh siyasəti proqramının problemlərinə, onun həyata keçirilmə metod və

[1] Hacıyev H.Ə. Əməkdaşlıq və dostluq telləri ilə. Bakı, Azərnəşr, 1985,190 s.; Саядов Э.С.«Азербайджанская культура в системе международных духовных отношений (1980-1990 гг.)». Автореф.дис.кан.ист.наук. Баку, 2005, 29 с.;Qasımov M.C. Azərbaycan Respublikası dünya meridianlarında. Bakı: Gənclik, 1992, 88 s.; Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. Bakı, 1996, 175 s.; Багиров А.Н. Наука Советского Азербайджана на международной арене. Журнал – «В мире книг». Баку, 1985, №2.; Гурбанов М.Г. Участие Азербайджанской ССР в осуществлении Советской Программы мира на 80-е годы (1981-1985 гг.). Автореферат дисс. кандидата исторических наук. Баку, 1986, 21 с.; Саядов О.С. «XX век: Азербайджан в системе международных отношений СССР. История, практика (70-80-е годы)». Баку, «Эльм», 2005, 320с.; Саядов О.С. Азербайджан в системе международных отношений Советского государства 1971-1985 гг. (отношения со странами Азии, Африки и Латинской Америки). Автореферат дисс.кандидата исторических наук. Баку, 1992, 26 с.; Мамедова Э.А. Участие Азербайджанской ССР в развитии внешнеэкономических связей Советского Союза с развивающимися странами (1960-1970 гг.)Автореферат дисс. кандидата исторических наук. Баку,1972, 23 с.; Мирзоев Э.М. Участие Азербайджанской ССР в подготовке Советским Союзом высококвалифицированных национальных кадров для социалистических и развивающихся стран (1971-1985 гг.). Автореферат дисс.кандидата исторических наук. Баку, 1988. 255 с.; Шукюров Ш.Д. Участие Азербайджанской ССР в развитии международных научных связей СССР (1971-1980 гг.). (По материалам Академии Наук Азербайджанской ССР). Автореферат дисс.кандидата исторических наук. Баку, 1985, 21 с.; Шукюров И. А. Дипломатия мира. Баку, -1997. 250 с.; Гусейнов К.А., Курбанов Г.М. На меридианах международных связей. Журнал: «Агитатор», апрел 1984, №17.

[2] Гурбанов М.Г. Участие Азербайджанской ССР в осуществлении Советской Программы мира на 80-е годы (1981-1985 гг.). Автореферат дисс. кандидата исторических наук. Баку, 1986, 21 с.;

istiqamətlərinin şərhinə və həmin siyasi kursun həyata keçirilməsində Azərbaycan Sovet Respublikasının fəaliyyətinin əsas formalarının açıqlanmasına həsr etmişdir. Lakin o, kommunist düşüncəsini ön plana çıxararaq, SSRİ-ni bütün insanların maraqlarını və hüquqlarını qoruyan, yəni, bütün xalqların istəyinin təminatçısı və gələcəklərinin düzgün, azad qurulması keşiyində duran qüvvə kimi qiymətləndirir.

Azər Bağırovun əsərlərində[1] 70-ci və 80-ci illərin əvvəllərində Sovet dövlətinin beynəlxalq münasibətlərində Azərbaycanın elminin iştirakı problemlərindən, o cümlədən ictimai-siyasi, iqtisadi əlaqələrdə həyata keçirilən ikitərəfli əməkdaşlığın bəzi məsələlərindən bəhs olunur və həmin istiqamətlərin şərhi verilir. Əsərlərdə verilən faktlarında təhlilindən aydın olur ki, müasir dövrdə geniş elmi tədqiqatlar aparılmadan və beynəlxalq ictimai həyatın tərəqqisi işinə müasir elmi nailiyyətlər cəlb olunmadan, xalq təsərrüfatının və elmin çoxsahəli sisteminin o dövür ki, inkişaf istiqamətlərini tam bilmək qeyri-mümkündür.

E.M.Mirzəyevin monaqrafiyasında [2] isə 70-ci və 80-ci illərdə Azərbaycan SSR -də sosialist və inkişaf etməkdə olan ölkələr üçün yüksək ixtisaslı milli kadrların hazırlanmasından bəhs edilir ki, bu sahədə olan əlaqələrinin əhəmiyyətindən geniş danışılsada elmi-texniki kömək, elmi nailiyyətlər, elmi məlumat və elmi ədəbiyyat mübadiləsi, birgə elmi-tədqiqat işləri təşkil etmək istiqamətlərində aparılan işləri yuxarıda göstərdiyimiz bütün formaların timsalında tam təhlili verilmədiyi üçün, həmin sahələrin bəzilərinin geniş tədqiqini məqsədəuyğun hesab edirik.

Oqtay Sayadovun əsərlərində[3] isə daha çox 70-ci və 80-ci illərin ilk yarsındakı Azərbaycanın SSRİ-nin beynəlxalq münasibətlərinin tərkibindəki iştirakı və Asiya, Afrika və Latın Amerikası ölkələri ilə əlaqələrindən bəhs edilir. Müəllif son iki on il ərzində çapdan çıxmış

---

[1] Багиров А.Н. Азербайджан в международных экономических связях Советского государства на современном этапе (1971-1985 гг.). Автореферат дисс.кандидата исторических наук. М., 1991, 23 с.

[2] Мирзоев Э.М. Участие Азербайджанской ССР в подготовке Советским Союзом высококвалифицированных национальных кадров для социалистических и развивающихся стран (1971-1985 гг.). Автореферат дисс.кандидата исторических наук. Баку, 1988. 255 с.;

[3] Саядов О.С. «XX век: Азербайджан в системе международных отношений СССР. История, практика (70-80-е годы)». Баку, «Эльм», 2005, 320с.;Саядов О.С. Азербайджан в системе международных отношений Советского государства 1971-1985 гг. (отношения со странами Азии, Африки и Латинской Америки). Автореферат дисс.кандидата исторических наук. Баку, 1992, 26 с.;

20-dən yuxarı əsərində 70-80-ci illərdə Azərbaycanın Sovet dövlətinin beynəlxalq əlaqələrində iştirakını, hərtərəfli tədqiq edib qiymətləndirir. Lakin bu əsərlərdə Azərbaycan SSR-nin 80-ci illəri və beynəlxalq humanitar əlaqələrinin bütün sahələri tam araşdırılmamış, eləcə də, digər ölkələrlələ də, olan əlaqələrin araşdırılmasına ehtiyac vardır.

Azərbaycan mədəniyyətinin dini və mənəvi proseslərində yeri məsələləri Elxan Sayadovun əsərlərində [1] təhlil edilir. Bu da bizim tədqiqatımızın cuzi bir hissəsinə aiddir.

Azərbaycan elminin beynəlxalq əlaqələri problemləri Ş.E.Şükürovun tədqiqat işinin əsasını təşkil edir.[2]

Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələrdə iştirakı məsələləri və beynəlxalq siyasi məsələr tarix professor Musa Qasımlının əsərlərində[3] də əsas və mühüm yer tutur. Məsələn, onun "Azərbaycan Respublikası dünya meridianlarında", "Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri)" və s. əsərlərini göstərmək olar. Birinci əsərdə Azərbaycanın 80-ci ilərinin ilk beş illiyindəki beynəlxalq mədəni əlaqələri tədqiq edilmişdir. Bu da, Azərbaycan SSR-nin beynəlxalq humanitar əlaqələrinin tam tədqiqinə ehtiyacın olduğunu göstərir. İkinci əsərdə isə beynəlxalq münasibətlərin nəzəri və siyasi aspektləri qeyd olunur ki, bu da tədqiqatımızda nəzəri cəhətinin formalaşmasında başlıca rol oynamışdır.

H.A.Hacıyevin əsərləri[4] respublikanın dünya dövlətləri ilə 60-cı illərdə beynəlxalq əlaqələrinin, demək olar ki, əsas sahələrini: iqtisadi, mədəni, elmi-texniki, kadr hazırlığı sahəsində əlaqələrini əhatə edir. Onların forma, metod və istiqamətlərinin hərtərəfli şərhini verir. Onun "Əməkdaşlıq və dostluq telləri ilə" əsəri isə 80-ci illərdə Azərbaycanın beynəlxalq humanitar əlaqələrinin tədqiqi üçün dəyərli mənbələrdəndir. Bu əsərdə də, beynəlxalq humanitar əlaqələrimiz tam tədqiq olunmamışdır.

Sayad Sayadov Azərbaycan Respublikasının beynəlxalq əlaqələrini tədqiq edərək, bir neçə əsər yazmışdır. Həmin əsərlərin hamısının təhlilini

---

[1]СаядовЭ.С.«Азербайджанская культура в системе международных духовных отношений (1980-1990гг.)»Автореф.дис.кан.ист.наук. Баку,2005,29 с.

[2] Шукюров И.А. Участие Азербайджанской ССР в развитии международных научных связей СССР (1971-1980 гг.). (По материалам Академии Наук Азербайджанской ССР). Автореферат дисс.кандидата исторических наук. Баку, 1985, 21 с.; Шукюров И. А. Дипломатия мира. Баку, -1997. 250 с.;

[3] M.C.Qasımlı. "Azərbaycan Respublikası dünya meridianlarında". Bakı: Gənclik, 1992–88s.;"Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri)"Bakı,1997-200 s.

[4] Hacıyev H.Ə. Əməkdaşlıq və dostluq telləri ilə. Bakı, Azərnəşr, 1985.-190 s

tam surətdə verməyə ehtiyac olmadığından onlardan o dövrdə və son vaxtlarda çap olunmuş bir sıra əsərlərinin üzərində dayanmağı məqsədəuyğun hesab edirik. Bunlardan biri 1991-ci ildə rus dilində çap olunmuş «Azərbaycan: beynəlxalq əlaqələr və qarşılıqlı anlaşma» adlı monoqrafiyası, ikincisi isə 2006-cı ildə çap olunmuş «XX əsr: Azərbaycan və dünya» əsəridir. S.A.Sayadovun yuxarıda adları çəkilən monoqrafiyaları göstərilən istiqamətdə Azərbaycan Sovet Sosilaist Respublikasının beynəlxalq əlaqələr tarixinin öyrənilməsində çox qiymətlidir. Bu sanballı əsərlərdə Azərbaycanın xarici siyasət fəaliyyətinin bütün sahələri konkret faktiki materiallar əsasında geniş şərh olunaraq, bu sahədə tarixi təcrübə ümumiləşdirilib işıqlandırılmışdır. Anaq müəllif bu əsərlərdə kommunist idealarına sadiq qalaraq təhlil vermişdir. Bundan başqa Azərbaycanın beynəlxalq fəaliyyətinin bir sıra istiqamətləri S.A.Sayadovun aşağıda adları qeyd olunan əsərlərində[1] təhlil edilib işıqlandırılır. Müəllif bu əsərlərdə də sırf sovet idealarına sadiq qalaraq, sovet dövlətinin beynəlxalq humanitar fəaliyyətini marksist-lenninci nəzəriyələrə əsaslanan beynəlmiləl bir qüvvə kimi göstərərək, SSRİ-ni bəşəriyyətin nüvə müharibəsi təhlükəsindən xilas edən, xalqların maraqları çərçivəsində dünyada hərtərəfli, sərfəli beynəlxalq əlaqələri genişləndirən bir qüvvə kimi təqdim etmişdir.

Tədqiqatın tarixşünaslığında verilmiş bu ədəbiyyatların təhlilindən görünür ki, Azərbaycan dövlətinin XX əsrin 80-ci illərindəki beynəlxalq aləmlə humanitar əlaqələrinin tədqiqinə həsr olunmuş ümumi əsər və ya elmi-tədqiqat işi yoxdur. Bu problem haqqında ayrı-ayrı əsərlərdə kiçik və bəzi hallarda geniş, dolğun olmayan məlumatlar verilib. Bütün bunlar isə problemin kompleks şəkildə tədqiqinə ehtiyac olduğunu göstərir.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Təqdim olunmuş elmi əsərin mənbəşünaslıq bazasını 80-ci illərdə ölkənin əsas siyasi sənədi olan Azərbaycan SSR Konstitusiyası, Əsas qanun topluları, onun səviyyəsində olan Dövlət tərəfindən qəbul edilmiş xüsusi sənədlər Azərbaycan SSR suverenliyi və müstəqilliyi haqqında Respublika Ali Sovetinin o vaxt qəbul etdiyi qanun və aktlar, eləcə də respublika hökumətinin siyasətilə əlaqədar qəbul etdiyi qərarlar, normativ aktlar və təlimat xarakterli sənədlər təşkil edir. Həmçinin dissertasiyanin yazılmasına güclü təsir göstərən və onun faktiki bazası rolunu oynayan əsas mənbəşünaslıq bazasını Azərbaycan

[1] Саядов С.А. «По законам интернационализма (Марксистко-ленинская политика интернационализма в деятельность КПСС на современном этапе строительства коммунизма)». М.: Мысль, 1983. -269 с.; «Интернационализм – наше знамия (осуществление КПСС политики интернационализма на современном этапе)». Баку, Гянджлик, 1985. -199 с.

Respublikasında fəaliyyət göstərən arxivlərin, dövlət orqanlarının və ictimai təşkilatların cari, dövri və uzunmüddətli arxivlərinin materialları, beynəlxalq aləmdə ölkə siyasətini bilavasitə həyata keçirən nazirlik və idarələrin arxiv və cari iş materialları, dövri mətbuatın – qəzet və jurnalların səhifələrində dərc olunmuş materiallar təşkil edir.

**Tədqiqat obyekti**. XX əsrin 80-ci illərindəki Azərbaycanın SSRİ-nin beynəlxalq humanitar əlaqələr sistemindəki yerinin ətraflı surətdə araşdırılması tədqiqatın əsas obyektidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas vəzifələri təhlil nəticəsində problemin öyrənilməsi istiqamətində aparılan işin vəziyyəti ilə bağlı əldə etdiyi elmi məlumatlara əsaslanaraq 80-ci illərdə Azərbaycan SSR-nin beynəlxalq humanitar əlaqələr sistemində yerini və rolunu müəyyən etmək, onun tarixini yazıb bu sahədəki buraxılmış elmi və tarixi boşluğu doldurmaq mövcud dissertasiya mövzusunun əsas məqsədini təşkil edir. Lakin yuxarıda göstərildiyi kimi bu problemin bütün aspektləri yox, bu məqsədi həyata keçirmək üçün, mövcud dissertasiyada əsas iki səviyyədə bu problemin həlli məsələsi başlıca elmi vəzifə kimi qarşıya qoyulmuşdur:

Birinci səviyyə dünyada gedən humanitar proseslərin xarakter və məzmununun geniş mənzərəsini təhlil etmək və Azərbaycan Sovet Sosialist dövlətinin milli potensialını və onun bu sahədə gedən beynəlxalq proseslərin inkişafında rolunu və imkanlarını aydınlaşdırmaq və qiymətləndirmək.

İkinci səviyyə Azərbaycan SSR-nin dünyada humanitar sahədə mövcud əməkdaşlıq sisteminin, ictimai, siyasi, mənəvi, intellektual və elmi bazasının möhkəmləndirilməsi mexanizmində onun konkret istiqamətlərində yerini göstərmək.

Belə ki, dissertasiyada Azərbaycanın beynəlxalq aləmdə humanitar əlaqələrinin ümumi mənzərəsi xarakterizə edilib, respublikanın dünya sistemində həyata keçirilən elm və təhsil sahəsində əlaqələrinin beynəlxalq aləmdə humanitar sahədə gedən əməkdaşlıq proseslərin təsiri aydınlaşdırılıb, milli mədəniyyətinin həmin dövrdə mövcud olan potensialının beynəlxalq əlaqələrin inkişafındakı əhəmiyyəti müəyyənləşdirilərək, ölkənin beynəlxalq ictimai-siyasi proseslərin inkişafında iştirakı və onun dünya humanitar əlaqələrindəki yeri konkret materiallar əsasında təhlil edilərək, aparılan işlərin əsas forma və istiqamətlərinin təhlil və nəticələri verilmişdir.

**Dissertasiya işinin metodoloji əsası.** Azərbaycanın beynəlxalq aləmdə humanitar əlaqələrinin ümumi mənzərəsini xarakterizə edərək, respublikanın dünya sistemində həyata keçirilən elm və təhsil sahəsində

əlaqələrini, milli mədəniyyətinin həmin dövrdə olan potensialının bu sahədə beynəlxalq əlaqələrin inkişafında əhəmiyyətini, ictimai-siyasi proseslərin inkişafında iştirakı və onun bu fəaliyyətinin dünya humanitar əlaqələrdəki yerinə sadədən mürəkkəbə doğru tənqidi yanaşma, dövrün tarixinin sinxron və kompleks tərzdə izlənməsi, faktların təhlil və müqayisəsi, şərh və ümumiləşdirilməsi metodları təşkil edir.

**Dissertasiyanın elmi yeniliyi.** Tədqiqat işinin əsas elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan tarixşünaslığında ilk dəfə XX əsrin 80-ci illərdə Azərbaycanın humanitar sahədə beynəlxalq əlaqələrinin bir çox əsas istiqamətləri konkret materiallar əsasında hərtərəfli, geniş şəkildə, elmi cəhətdən tədqiq olunur.

- Həmin dövürdəki, Azərbaycanın beynəlxalq humanitar əlaqələrini hərtərəfli, müqayisəli tədqiq etmək üçün, tərkibində olduğu SSRİ-nin beynəlxalq humanitar fəaliyyətidə tədqiqata çəlb olunub.
- Beynəlxalq əməkdaşlıq sisteminin humanitar sahəsində mövcud olan ictimai, siyasi, mənəvi, intellektual və elmi istiqamətləri tarixçi mövqeyindən elmi cəhətdən qiymətləndirilir.
- Respublikanın beynəlxalq humanitar sahədəki əlaqələri ölkənin o dövrdə mövcud iqtisadi, siyasi, mənəvi və mədəni inkişafı ilə sıx qarşılıqlı əlaqədə təhlil olunur.
- Tədqiqatda istifadə olunmuş materialların əksəriyyəti ilk dəfədir ki, elmi dövriyyəyə gətirilib.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın praktiki əhəmiyyəti ondan ibarətdir ki, onda öz əksini tapmış elmi və nəzəri yekunlar, ümumiləşdirmələr, təhlil olunmuş və işıqlandırılmış faktiki materiallar ölkənin intellektual, ictimai-siyasi, elmi, mədəni, ali və orta təhsil şəbəkəsində hərtərəfli istifadə edilə bilinər. Bu aşağıdakı hallarda daha vacibdir: ölkənin xarici siyasət fəaliyyətinə həsr olunmuş böyük və kiçik həcmli əsərlər, kitablar və monoqrafiyalar yazılarkən; dövlətin diplomatiya tarixinin humanitar münasibətlərə dair fəsilləri yazılarkən; Azərbaycan əhalisi ilə siyasi fəaliyyətin genişlənməsində, dövlətin beynəlxalq fəaliyyətinə dair təbliğat-təşviqat və başqa siyasi xarakterdə təşkil olunan işlərini həyata keçirilməsində və həmçinin Azərbaycan dövlətinin dünya sistemində beynəlxalq siyasi fəaliyyətini həyata keçirən hər bir müəssisənin, idarə və təşkilatın gündəlik işində əhəmiyyətlidir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasında yerinə yetirilmiş, müzakirə edilib və müdafiəyə təqdim olunmuşdur. Dissertasiyanın mövzusu AMEA-nın nəzdində fəaliyyət göstərən Tarix üzrə Əlaqələndirmə Şurasının 2006-cı il 31 mart tarixli iclasında qeydiyatda alınıb.

Tədqiqat mövzusuna aid 17 elmi məqalə və tezis çap edilmişdir. Onlardan 5 -i xaricdə, 12-i isə yerli elmi jurnallarda və konfrans materiallarında çap edilmişdir. Həmin məqalə, tezislərdə dissertasiyanın əsas məzmunu, başlıca müddəa və nəticələri öz əksini tapır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, beş fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat və mənbə siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Giriş"** də mövzunun aktuallığı əsaslandırılmış, problemin tədqiqi səviyyəsinə münasibət bildirilmiş, tədqiqatın məqsəd və vəzifəsi müəyyən olunmuş, mənbəşunaslıq bazası, elmi yeniliyi, nəzəri və metodoloji əsası, nəzəri və praktiki əhəmiyyəti göstərilmişdir.

**"XX əsrin 80-ci illərində beynəlxalq münasibətlər, onun inkişafinda humanitar potensialın yeri və SSRİ"** adlanan birinci fəsldə beynəlxalq münasibətlərin inkişafı, bu inkişaf zamanı humanitar əlaqələrin rolu və bu münasibətlərdə SSRİ-nin yeri təhlil edilmişdir. Belə ki, bu tarixi mərhələdə beynəlxalq münasibətlərin inkişafı çox gərgin və mürəkkəb bir şəraitdə baş verirdi. Bu qanunauyğun proses dünyanın ictimai inkişafının öz məzmun və mahiyyətindən irəli gələn, eləcə də beynəlxalq münasibətlərin inkişafında iki bir-birinə əks olan tendensiyaların mövcudluğu ilə bağlı idi. O dövrdə dünyanın inkişaf dinamikası mövcud iki əks qüvvənin; sosializmin və kapitalizmin siyasi tələblərindən irəli gələn şərtlərlə inkişaf edirdi. Bu iki əks qüvvə öz güc üstünlükləri və xülyalarına arxalanaraq, yeni növ silahlarla silahlanaraq, sosial revanşa ümid bəsləyirdilər. Sovet dövləti də daima çalışırdı ki, dünyada birinci sosialist dövləti kimi, onun xarici siyasəti öz maraqlarının müdafiəsində çevik, təsiredici və maksimal olsun. Eləcə də, kapitalizmə qarşı mübarizədə barışmaz mövqedə dayana bilsin. Sovet dövləti təkcə bu siyasətin məqsəd və istiqamətlərini müəyyən etmirdi. O, həm də bu prosesləri nizamlamaq üçün, onları dövlətin ali orqanlarının müzakirə mövzusuna çevirmişdir. Həmin kurs bütün dolğunluqla Sov.İKP-nın 80-ci illərdə keçirilən XXVI, XXVII qurultaylarının qərarlarında və sənədlərində öz əksini tapmışdır. [1]

Məlum olduğu kimi, Sovet İttifaqının o dövrdə dünyada humanitar əlaqələr qurduğu üç əsas siyasi sistem mövcud idi: sosialist sistemi ölkələri, inkişaf etməkdə olan və kapitalist ölkələri və QİYŞ üzvləri olan dövlətlər. SSRİ-nin bu ölkələrin hər biri ilə əlaqələri spesifik xüsusiyyət daşıyırdı. Təbii ki, başlıca olaraq sosialist düşüncə və prinsiplərinə xidmət edirdi.

Sosialist ölkələrlə dostluğunun, iqtisadiyyat, elm, təhsil və mədəniyyət sahəsində birgə «beynəlmiləl istehsal» da planlaşdırılmasında və əməyin beynəlmiləl bölgüsünə, iqtisadi, mənəvi və mədəni-maarif işinin əlaqələndirilməsinə, istehsalat və mədəni mübadilənin artan qanunauyğun

[1] СССР в борьбе за мир и безопасность народов. Исторический опыт. М.: Международные отношения, 1984. 391.с.; Саядов С.А. Интернационализм – наше знамия (осуществление КПСС политики интернационализма на современном этапе).Баку, Гянджлик, 1985, 199 с.

tendensiyasının möhkəmləndirilməsinə, Asiya, Afrika və Latın Amerikası dövlətləri ilə əlaqələrində isə iqtisadiyyat və mədəniyyət sahələrindəki çatışmamazlıqların aradan qaldırılmasında və onların iqtisadi potensialının yaradılmasında, inkişafında, maarifçiliyin, elmin, səhiyyənin, milli kadrların hazırlanmasında, ali və orta ixtisas təhsil sisteminin yaradılmasında onlara geniş kömək göstərmək Sovet dövlətinin o dövrdə yürütdüyü siyasət olmuşdur.

Tədqiqat dövründə, yəni 80-ci illərdə, Sovet dövləti inkişaf etmiş kapitalist ölkələri ilə də humanitar və sülh əlaqələrinə ciddi diqqət yetirirdi. Həmin dövrdə qərb ölkələrinin əksəriyyətilə iqtisadi, texniki, mədəni və elmi əməkdaşlıq haqqında uzunmüddətli və qısamüddətli sazişləri bağlanmışdır. Lakin bu zaman SSRİ – öz kommunist prinsip və ideyalarından kənara çıxmamışdır.

Həmin dövrdə SSRİ-nin beynəlxalq əməkdaşlığının miqyasının artmasını təsvir etmək üçün, aşağıdakı rəqəmləri göstərmək kifayətdir. İsqisadiyyat sahəsində 1986-cı ilin yanvarına ticarət tərəfdaşlarının sayı 150-yə çatmışdır. 116 ölkə ilə bu əməkdaşlıq münasibətləri ticari, iqtisadi və sənaye haqqında hökumətlərarası sazişlər əsasında inkişaf edirdi. 80-dən artıq nazirlik, o cümlədən SSRİ-nin xarici iqtisadi əlaqələr nazirliyi, hansıların ki, işində 142 dünya ölkəsində öz nümayəndəlikləri və SSRİ ərazisində bir neçə iri təşkilatı olan təşkilatlar iştirak edirdilər.[1]

Sovet dövləti 80-ci illərdə beynəlxalq humanitar əlaqələrinin mənəvi əsasının möhkəmləndirilməsi işində xarici dövlətlərlə mədəni əlaqələrinin genişləndirilməsinə də çox böyük yer vermişdir. 1985-ci ilin axırına olan məlumatlara görə, SSRİ-nin dünyanın 125-dən artıq ölkəsi ilə mədəni əlaqələri var idi. O, bu işləri 103-ə yaxın ölkə ilə dövlətlərarası razılaşmalar əsasında həyata keçirir, həmçinin 250-dən artıq beynəlxalq mədəniyyət təşkilatının işində iştirak edirdi.[2]

**“Beynəlxalq humanitar münasibətlər və onun genişlənməsində Azərbaycan SSR milli potensialının yeri”** adlı problem dissertasiyanın ikinci fəslində araşdırılır. Bu istiqamətdə o dövrdə beynəlxalq əlaqələrin parlaq nümunəsi kimi Azərbaycanın da materialları xarakterikdir.

O vaxt Azərbaycan SSRİ tərkibində inkişafda olan bir sosialist dövləti idi. Onun beynəlxalq aləmdə fəaliyyəti başqa respublikalardakı kimi, Sovet dövlətinin xarici siyasəti istiqamətlərinə, məqsəd və vəzifələrinə uyğun idi. Müxtəlif sosial quruluşu olan dövlətlərlə münasibətləri Sovet dövlətinin

[1] Журнал «Новое время». №12, 1985, s.6.; Внешняя торговья СССР в 1985 году. М.финансы и статистика, 1986.-с. 8.
[2] Ежегодник Большой Советской Энциклопедии.Выпуск 28. М., 1985. с.91-92

xidmət etdiyi sülh prinsiplərinə əsaslanırdı. Beynəlxalq məsələlərdə respublikanın iştirak etmək hüquqları SSRİ Konstitusiyasında [1] və Azərbaycan SSR Konstitusiyasının bir neçə əsas maddələrində də öz əksini tapmışdır. Azərbaycan SSR-yə SSRİ Konstitusiyası ilə müəyyənləşdirilmiş qaydada, SSRİ dövlətinin təyin etdiyi formada xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərə rəhbərlik və həyata keçirtmək hüququ verilmişdir. Azərbaycan xalqı bunları öz milli vəzifəsi kimi qəbul edib həyata keçirmək məcburiyyətində idi. Bu qanuni tələb Azərbaycan SSR-in Konstitusiyasının 67-ci maddəsində də öz qanuni əksini tapmışdır.[2]

Sovet İttifaqı respublikalarının nümayəndələri kimi, Azərbaycan nümayəndələri də bütün orqanlarda SSRİ-nin xarici siyasi kursunun müzakirəsində, onun işlənməsində iştirak edirdi. SSRİ Ali Soveti sessiyalarında beynəlxalq problemlərin müzakirəsində sadəcə öz təkliflərini vermək hüququna malik olmuşdu. Azərbaycan SSR beynəlxalq aləmdə Sovet dövlətinin öz siyasi-iqtisadi, humanitar proqramının həyata keçirilməsi məsələləri ilə məşğul olan bütün ümumittifaq təşkilatlarında, yəni SSRİ Xarici İşlər Nazirliyinin, xarici turizm üzrə Dövlət Komitəsinin, SSRİ Gənclər təşkilatları Komitəsinin, SSRİ Jurnalistlər İttifaqının, Sovet Qadınları Komitəsinin, Xarici Ölkələrlə Sovet İttifaqı Dostluq Cəmiyyətinin, Sovetlər Həmkarlar İttifaqının, Sovet Sülh Komitəsinin, Asiya, Afrika Sovet Həmrəylik Komitəsinin, Sovet «Vətən» cəmiyyətinin və bir çox başqa təşkilatların işində təmsil olunurdu. Bu orqanların xarici tədbirlərində Azərbaycan SSRİ xalqları və Azərbaycan SSR-də yaşayan xalqlar adından iştirak edirdi. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi nəzdində fəaliyyətdə olan xarici əlaqələr şöbəsi, respublikanın Nazirlər Soveti, Azərbaycan Xarici İşlər Nazirliyi, Respublika Dövlət Plan Komitəsi, Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti, Xarici turizm üzrə Nazirlər Soveti yanında Dövlət Komitəsi, Respublika Sülhü Müdafiə Komitəsi, Gənclər Təşkilatları Komitəsi, Respublika Ticarət-Sənaye palatası, Azərbaycan SSR Nazirlər Sovetinin Xarici İqtisadi Əlaqələr üzrə Dövlət Komitəsi, «Şərq xarici ticarət», «Azərxarici ticarət», «Azərittifaq» xarici ticarət birləşmələrinin qurumları, həmin təşkilatların yanında fəaliyyət göstərən şöbələr, komissiyalar və başqa təşkilatlar fəal rol oynayırdılar.[3]

---

[1] Конституция Союза Советских Социалистических Республик. М., 1977. с.- 11-12.

[2] Конституция Азербайджанской Советской Социалистической Республики. Баку, 1984. с.-21.

[3] Sayadov S.A. XX əsr: Azərbaycan və dünya. Bakı, «Elm», 2006, -285s.

Ulu öndər Heydər Əliyev 1969-cu il iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi və 1982-ci ilin dekabrından Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildikdən sonra SSRİ-nin rəhbərlərindən biri kimi, bu proseslərin nizamlaması və təşkili üçün, çoxlu işlər görmüşdür. Bu beynəlxalq münasibətlərin və humanitar əlaqələrin güclənməsinin və genişlənməsinin parlaq təsdiqi o idi ki, həmin illərdə Azərbaycan 120 dünya dövlətinin 860 təşkilatı ilə mədəni həyat sahəsində əlaqələr qurmuş, sosialist, inkişafda olan Asiya, Afrika və Latın Amerikası ölkələri və inkişaf etmiş kapitalist dövlətləri ilə əlaqələr yaradaraq mədəni həyatın müxtəlif sahələrində: təhsil, ədəbiyyat, incəsənət, radio, televiziya, kino və sair sahələrdə həyata keçirilirdi.[1]

**"Beynəlxalq aləmdə humanitar münasibətlər və onun intellektual bazasının formalaşmasında Azərbaycan SSR elmi fikrinin rolu"** adlı üçüncü fəsildə elm və təhsil sahəsindəki əlaqələrdən bəhs edilir. Tədqiqat dövründə Azərbaycan humanitar proseslərin təkmilləşməsi işində elm və təhsilə güclü təsir göstərən bir amil kimi baxaraq, beynəlxalq fəaliyyətində həmin sahəyə əsas istiqamət kimi ciddi yer vermişdir. Başqa sahələrdə olduğu kimi, elm sahəsində də beynəlxalq əlaqələrini SSRİ dövləti vasitəsi ilə həyata keçirərək, 80-ci illərdə Azərbaycan beynəlxalq humanitar proseslər çərçivəsində dünya elmi ilə öz elmi əlaqələrini genişləndirmişdir. Əldə olan milli elmi potensialdan istifadə edilərək, əlaqələrin müxtəlif forma və istiqamətlər vasitəsi ilə həyata keçirilmişdir. Bütün elm sahələrini əhatə etmiş və müxtəlif istiqamətlərdə özünü göstərərək, öz xarici tərəfdaş və təşkilatları ilə birgə tədqiqatlar aparılmış, elmi məlumatlar, ədəbiyyat və təcrübə mübadiləsi həyata keçirilmiş, bir-birinə qonaq (elmi məqsədlər üçün) getmiş, birgə konqreslər və konfranslar keçirmək, bir-birinin ölkəsinə elmi-texniki simpoziumlarda iştirak etmək üçün səfər etmiş və digər sahələrdə geniş əlaqələr qurmuşdular. Məsələn, tədqiq etdiyimiz illərdə 1500-ə qədər Azərbaycan alimi xarici ölkələrdə elmi səfərdə olmuş, 2000-ə yaxın öz xarici həmkarını respublikamızda qəbul etmişlər. Təkcə respublika Elmlər Akademiyasının alimləri hər il 5 ölkənin orta hesabla 500 elmi təşkilatı və mərkəzi ilə əlaqə saxlamış və müxtəlif elm sahələrini əhatə edən 40 mövzu üzrə birgə tədqiqat işləri aparmışdı.[2] Eyni zamanda elmi

[1] Azərbaycan SSR-i Nazirlər Soveti yanında Xarici Turizm üzrə Dövlət Komitəsinin dövrü arxivi. Qovluq №8, v.11.; Газета «Вышка». 19 июль 1980 г.; Ежегодник Большой Советской Энциклопедии. Выпуск – 28. М., 1984. с. 100.

[2] Azərbaycan SSR-i Nazirlər Soveti yanında Dövlət Plan Komitəsinin dövrü arxivi. İş №7, s.2-4; iş №3, s.12-15; iş №8, s.6-8; iş №1, s.3-5.; Azərbaycan SSR-i Xarici İşlər Nazirliyinin dövrü arxivi. №7, s.3.; Azərbaycan Ali və Orta Təhsil Nazirliyinin dövrü arxivi.

ezamiyyət formasında Azərbaycan Elmlər Akademiyası sistemində elmin müxtəlif sahələrində çalışan 1900-dən çox nümayəndəsinin 187 nəfəri elmi-tədqiqat işləri aparmaq, 295 nəfəri elmi tədbirlərdə, konqreslərdə, simpoziumlarda, konfranslarda və müşavirələrdə iştirak etmək üçün, 200-ə qədəri elmi turizm kanalı ilə, 111 nəfəri isə elmi-texniki kömək göstərmək məqsədilə xarici ölkələrdə olmuşlar. Tədqiqat dövründə respublika elmi beynəlxalq humanitar proseslərin inkişafında, eyni zamanda, elmi ədəbiyyat mübadiləsi, beynəlxalq konfransların, simpoziumların və digər elmi forumların hazırlanıb həyata keçirilməsi yolu ilə də iştirak etmişdir. Öyrənilən 80-ci illərdə Azərbaycan alimləri 200-ə yaxın böyük beynəlxalq elmi tədbirdə, konqresdə, simpoziumda və digər elmi xarakterli tədbirlərdə iştirak etmişlər. Bu zaman təkcə Bakıda 80-dən yuxarı beynəlxalq elmi konfrans, simpozium, konqres və digər elmi tədbirlər keçirilmişdir.[1]

Təkcə bunu göstərmək kifayətdir ki, həmin illərdə Azərbaycan elminin kapitalist ölkələrinin 350-dən 400-ə qədər, sosialist ölkələrinin 120-dən 135-ə qədər elmi idarə və təşkilatı ilə əlaqələri olmuşdur. Azərbaycan alimlərinin əsərləri 40-dan çox inkişaf etmiş kapitalist ölkəsində 30 dildə çapdan çıxmış, ayrı-ayrı sosialist ölkələrində keçirilmiş 50-dən yuxarı beynəlxalq simpozium, sessiya, konfrans, konqres və digər elmi tədbirlərdə iştirak etmişlər.[2] Azərbaycan Elmlər Akademiyasının Böyük fundamental kitabxanası 40-dan 53-ə qədər xarici ölkələrdə fəaliyyət göstərən 460-dan 580-ə qədər elmi mərkəzlərlə əməkdaşlıq etmişdir [3]

Bu dövrdə Azərbaycan alimləri Asiya, Afrika və Latın Amerikasının 30-dan çox ölkəsinə göndərilmişdir. Həmçini 45-dən 130-a qədər elmi təşkilat və kitabxana ilə elmi informasiya sahəsində əlaqələri olmuşdur. Təkcə bunu göstərmək kifayətdir ki, tədqiq olunan dövrdə Azərbaycanda həmin ölkələrin 70-dən çox nümayəndəsi namizədlik dissertasiyası müdafiə etmişdir. Tədqiq etdiyimiz 80-cı illərdə respublikanın tədris ocaqlarında 48-dən 70-ə qədər dünya ölkələrinin gəncləri təhsil alırdılar. Həmin illərdə respublikanın Asiya, Afrika və Latın Amerikası ölkələrinin 70-dən çox nümayəndəsi Azərbaycanda namizədlik dissertasiyası müdafiə etmiş, 500-ə yaxın nümayəndəsi isə elmi təcrübə keçmişdir. Təkcə 1980-1985-ci illərdə Respublikamızda Afrika qitəsinin Zimbabve, Əlcəzair, Nigeriya,

---

[1] Azərbaycan Ali və Orta Təhsil Nazirliyinin dövrü arxivi. İş №7, s.4.

[2] Отчет о деятельности Академии Наук Азербайджанской ССР. Баку, «Элм», за 1980-1990 гг. с. 3-12, 116-167.; Алиев К.Г., Оруджов В.А. Развитие науки в вузах Азербайджана за годы IX и X пятилетки. Баку, 1985. 400 с.; Вклад Азербайджанской ССР в осуществление Программы мира (Тематический сборник научных трудов). Баку: Азернешр, 1983. 91 с.;

[3] Azərbaycan SSR-i Elmlər Akademiyasının Elmi kitabxanasının dövrü arxivi. Iş №5, s.3-4

Həbəşistan, Asiyanın Anqola, Suriya, Küveyt Əfqanıstan, Malayziya ölkələri üçün 180-ə qədər yüksək ixtisaslı mütəxəssis və aspirantura yolu ilə 20 nəfərdən yuxarı elmi kadr hazırlanmışdır. Həmin dövrdə respublikamızda göstərilən ölkələr üçün bir sıra sahələr üzrə çoxlu sayda kadr hazırlanmışdır. 1980-ci ildə 2000-dən çox, 1981-ci ildə 2200-ə qədər, 1982-ci ildə 1800-dən artıq, 1983-cü ildə 2300-ə qədər, 1984-cü ildə 2000-dən çox, 1985-ci ildə isə 2500-ə qədər gənc respublikamızda müxtəlif ixtisaslar üzrə təhsil alaraq,[1] milli elmi potensialının bütün imkanlarından istifadə etmişlər.

**"Dünyada inkişafda olan humanitar proseslərin mənəvi bazasının genişlənməsində Azərbaycan SSR mədəni potensialının yeri"** adlı dördüncü fəsldə XX əsrin 80-ci illərində Azərbaycan SSR-i milli mədəniyyətinin beynəlxalq əlaqələrdəki iştirakı araşdırılmışdır. Azərbaycanın mədəniyyət sahəsindəki beynəlxalq əlaqəsi özünəməxsus inkişaf etsədə, başqa sahələrdə olduğu kimi, bu sahədəki fəaliyyəti də, SSRİ dövlətinin xarici siyasət sistemi çərçivəsində həyata keçirilirdi.

Həmin əlaqələr mədəniyyət xadimləri nümayəndələrinin və yaradıcı kollektivlərin mübadiləsi, şairlərin, yazıçıların əsərlərinin qarşılıqlı nəşri, milli mədəniyyətin nailiyyətlərinin təbliğinə xidmət edən birgə tədbirlərin keçirilməsi (mədəniyyət günləri, festival və sərgi), dram və musiqi kollektivlərinin yaradıcı əlaqələri, qarşılıqlı gediş-gəlişi, kino filmlərinin, radio və televiziya verilişlərinin mübadiləsi formasında həyata keçirilmişdir. Həmin dövrdə bu yollarla 1800-dən yuxarı mədəniyyət xadimi, yaradıcı birliklərin nümayəndələri, 80-dən yuxarı yaradıcı kollektiv, ifaçı qruplar, 900-dən yuxarı musiqiçi, xanəndə və aktyor xarici ölkələrdə olmuşdu. Ümumiyyətlə, sosialist ölkələrinin incəsənət nümayəndələri 55 dəfə respublikamızda olmuşlar. Təkcə 1980-1985-ci illərdə onlar 22 dəfə məmləkətimizə səfər etmiş və 180-dən yuxarı konsert vermişlər. Həmin dövrdə Azərbaycan SSR incəsənətinin 450-dən yuxarı nümayəndəsi kapitalist ölkələrində olmuş, çoxlu görüşlər, konsertlər və digər tədbirlər keçirmişlər. [2] Azərbaycan incəsənətinin nümayəndələri göstərdiyimiz illərdə 160-dən çox (ölkələrin bəziləri bir neçə dəfə təkrar olunmuşdur) ölkələrin 700-dən çox şəhərində olmuş, təxminən 1500-dən yuxarı konsert vermiş və 3500-ə qədər görüş keçirmişlərdir. Eyni dövrdə

---

[1] Azərbaycan Ali və Orta Təhsil Nazirliyinin dövrü arxivi. İş №2, s.8-10; İş №4, s.2; iş №5, s.3,6,8; iş №7, s.7-11; İş №8, s. 11-13.

[2] Azərbaycan SSR-i Mədəniyyət Nazirliyinin dövrü arxivi. İş №3, s.11; İş №4, s.2-11; İş №7, s.7-11, 18-21, iş №8, s.5; Azərbaycan SSR-i Nazirlər Soveti yanında Xarici Turizm üzrə Dövlət Komitəsinin dövrü arxivi. Qovluq №8, v.11.

isə 140-dən çox ölkənin incəsənət nümayəndələri Azərbaycanda olmuşdur.[1] Həmin dövrdə Lenin mükafatı laureatı, SSRİ və Azərbaycan SSR xalq artisti Qara Qarayevin «Yeddi gözəl» və «İldırımlı yollarla» baletləri dünyanın 9 ölkəsində, Arif Məlikovun «Məhəbbət əfsanəsi» baleti dünyanın 11 ölkəsində 25 dəfədən artıq tamaşaya qoyulmuşdur. SSRİ və Azərbaycan SSR xalq artisti Fikrət Əmirovun «Şur» və «Kürd ovşarı» muğam simfonik əsərləri ABŞ-ın Boston simfonik orkestri tərəfindən, «Nizami» simfonik poeması isə Böyük Britaniya krallığının simfonik orkestri tərəfindən ifa olunmuşdur.[2] Həmçinin Azərbaycan milli incəsənətinin belə əlaqələrinin möhkəmlənməsində respublikanın ən görkəmli incəsənət ustalarının, məsələn, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan SSR xalq artisti R.Behbudov tədqiqat dövründə 60 ölkənin 160-dan yuxarı şəhərində konsertlər vermişdir.[3] 1985-ci ildə baletmeyster N.Nəzirova bəstəkar F.Əmirovun «Min bir gecə» baletini İstanbulda tamaşaya qoymuşdur. 1986-cı ildə Nyu-Yorkun ən yaxşı teatrlarından olan «Seriya repertuarı kompani» Azərbaycan yazıçısı və dramarturqu R.İbrahimbəyovun pyesini tamaşaya qoymuşdur.[4] Azərbaycan muğam üçlüyü YUNESKO-nun bayrağı altında keçirilən 22-ci beynəlxalq musiqi festivalında birinci yeri tutmuşdur. Azərbaycan cazını təbliğ etmək üçün «Qaya»nın solisti Əzizə Mustafazadə İsveçrə və ABŞ-da konsertlər vermiş və beynəlxalq caz festivalında birinci yeri tutmuşdur. 1989-cu ildə Z.Xanlarova iki dəfə ABŞ-da, sonra isə Danimarka, Hollandiya və İsraildə konsertlər vermişdir.[5]

Məhz həmin illərdə ölkənin kinematoqrafiya sahəsinin beynəlxalq əməkdaşlığında da irəliləyiş baş vermişdir. 1981-ci ildə Sarayevo (Yuqoslaviya) şəhərindəki «Suteskafilm» studiyası ilə «Azərbaycanfilm» Böyük Vətən müharibəsində Yuqoslaviyada müqavimət hərəkatında iştirak etmiş həmvətənlərimizə həsr edilmiş kino çəkmişdi.[6] 1989-cu ildə Qorki adına kinostudiya, «Azərbaycantelefilm», «Lenfilm», «Gürcüstanfilm», «Odessa» və Bavariyanın (AFR) «Prima» kinostudiyasında «İnterdet» kinobirliyi yaratmışlar. Bu birlik C.Ələkbərzadənin «Alman çaxırı» povesti

---

[1] Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin dövrü arxivi. iş №7, s.11-13.
[2] Kommunist» qəzeti. 22 dekabr 1987-ci il.
[3] Hacıyev H.Ə. Əməkdaşlıq və dostluq telləri ilə. Bakı, Azərnəşr, 1985. s.82-83;108.
[4] Qasımov M.C.Azərbaycan Respublikası dünya meridianlarında. Bakı, Gənclik, 1992. s. 45.
[5] Azərbaycan SSR-i Mədəniyyət Nazirliyinin dövrü arxivi. İş № 7, s.1-3.
[6] Газета «Баку». 28 август 1981 г.

əsasında film çəkmişdir. Həmin dövrdə təkcə Azərbaycanda bu sahədə 40-a qədər beynəlxalq tədbir keçirilmişdir.[1]

80-ci illərdə Azərbaycanın rəssam, memar və heykəltaraşları da beynəlxalq mədəni əlaqələrdə fəal iştirak etmişlər. 1981-ci ildə Parisdə YUNESKO-nun iqamətgahında 20-dən çox Azərbaycan əl xalçası sərgisi keçirilmişdir.[2] 1988-ci ilin ən mühüm hadisəsi heç şübhəsiz YUNESKO-nun iştirakı ilə Bakıda İkinci Beynəlxalq Şərq xalçası sənətinə dair simpoziumun keçirilməsi olmuşdur. Simpoziumun işində dünyanın 18 ölkəsindən, o cümlədən ABŞ, Çin, İngiltərə, ADR, Yaponiya, Türkiyə və İtaliyadan 150-dən çox alim, rəssam və xalça mütəxəssisi iştirak etmişdir.[3]

Azərbaycan Respublikasının dünya humanitar əlaqələrində rolunun dərinləşməsində ən mühüm formalarından biri də, dostluq günlərində iştirakıdır. Məsələn təkcə 1980-82- ci illərdə Kanada, İsveçrə, İslandiya, İordaniya, Nepal, Qərbi Berlin və BSR-də Azərbaycan mədəniyyəti günləri keçirilmişdir. Ümumiləşdirilmiş şəkildə desək tədqiqat dövründə dünyada 30-dan artıq SSRİ mədəniyyət günü Azərbaycan incəsənətinin iştirakı ilə keçirilmişdir.[4]

Azərbaycan mədəniyyətinin fəal komponentlərindən biri də, onun kitabla məşğul olan təşkilatlarının dünya ölkələri ilə beynəlxalq əlaqələridir. 1987-ci ildə Bakıda keçirilən Sloveniya kitab sərgisində Azərbaycan kitab çapçılarının sifarişi ilə Yuqoslaviyanın Krayn şəhərindəki «Qorenski tisk» nəşriyyatında Nizami Gəncəvinin çap olunan əsərləri də nümayiş etdirilmişdir. 80-ci illərin sonunda ABŞ-da Azərbaycan kitabı özünə geniş yol açmağa başladı. Missuri ştatının Sankt-Luis şəhərindəki Lindenvud kollecinin tələbələri bu məqsədlə Bakı haqqında fotoalbomu və böyük mütəfəkkir Nizaminin məşhur «Xəmsə»sini öz ölkələrinə aparıb yaydılar. Professor Mehdi Sultanovun tibbə dair kitabları ABŞ-da nəşr olunmuşdur. Həmin illərdə Ankarada çapdan çıxan görkəmli Azərbaycan alimləri S.Əliyarov və B.Vahabzadənin «Dağlıq Qarabağ; Uydurmalar və həqiqət» kitabı xalqımız haqqında informasiya mühasirəsinin qırılmasında misilsiz mənbə rolunu oynadı. [5] Beynəlxalq kitab mübadiləsi yolu ilə Akademiyanın mərkəzi kitabxanası dünyanın 50 ölkəsinin 567 təşkilatı ilə əməkdaşlıq etmişdir.

---

[1] Газета «Бакинский рабочий».16 апрель, 2 июнь 1989 г.

[2] Газета «Баку». 2 декабрь 1982 г.

[3] Azərbaycan SSR-i Mədəniyyət Nazirliyinin dövrü arxivi. İş №1, s.2-3.

[4] Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin dövrü arxivi. İş № 4, s.7; İş № 11, s.3-4.

[5] Azərbaycan SSR-i Nazirlər Soveti yanında Dövlət Poliqrafiya və Kitab Satışı Komitəsinin dövrü arxivi. İş № 2, s.2, 14, 17,18.

**“Beynəlxalq humanitar proseslər və onun ictimai-siyasi əsaslarının formalaşmasında Azərbaycan SSR potensialının rolu”** adlı beşinci fəsldə XX əsrin 80-ci illərində Azərbaycanın SSRİ-nin tərkib hissəsi kimi, onun beynəlxalq humanitar əlaqələrində öz ictimai-siyasi potensialı ilə iştirakından bəhs edilir. Azərbaycan Sovet dövlətinin beynəlxalq ictimai-siyasi əlaqələrinin möhkəmlənməsi istiqamətində çox geniş iş aparmışdır. Burada başlıca amil Sovet dövlətinin öz maraqlarından doğan siyasəti həyata keçirmək olmuşdur. Bu fəaliyyət uzun müddət dövlətlərarası münasibətlərin və yer üzündə həyatın qorunub saxlanmasından çox Sovet dövləti ideyalarının təbliğinə yönəldilmişdi.[1]

Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin xətti ilə Azərbaycan ictimaiyyətinin 600-dən çox nümayəndəsi xarici ölkələrdə olmuş, öz növbəsində isə xarici ölkələrdə fəaliyyət göstərən ictimai-siyasi təşkilatların, elm və mədəniyyət xadimlərinin 800-dən artıq nümayəndəsi respublikamızda qəbul edilmişdir. Cəmiyyət təkcə özünün orqanı olan «Sovet Azərbaycanı bu gün» jurnalını (həmin jurnal 7 dildə, o cümlədən 6 xarici dildə çıxırdı) ölkənin 860-dan yuxarı ünvanına göndərmişdir. Dünyanın 26 ölkəsində Mədəni mərkəzlər yaradılıb fəaliyyət göstərmişdir. [2]

1983-cü ildə xarici ölkələrdə yaşayan həmvətənlərlə əlaqə yaratmaq məqsədi ilə təsis edilmiş «Vətən» cəmiyyəti Cəmiyyət tərəfindən dünyadakı Azərbaycanlı diasporlar ilə əlaqə saxlanılıb və onları birləşdirmək üçün çoxsaylı tədbirlər həyata keçirilmişdir. Həmin cəmiyyətin köməyi ilə xaricdəki həmvətənlərimiz xalqımız haqqında ictimai rəyin formalaşmasında, sülh, tərksilah uğrunda mübarizədə böyük rol oynamışdır. «Vətən» cəmiyyəti xaricdən 10 nümayəndə heyətini qəbul etmiş, xaricə isə 15 nümayəndə heyəti göndərmişdir.[3]

Azərbaycanın beynəlxalq humanitar əlaqələrinin göstərilən illərdə inkişaf etməsində respublika həmkarlar təşkilatının fəaliyyəti də az olmamışdır. 1980-1991-ci illərdə Azərbaycanda 80 ölkədən 200-dən çox nümayəndə, Azərbaycan həmkarlar təşkilatının isə 150-dən çox nümayəndəsi dünyanın 60 ölkəsində olmuş və respublikamızda dünya həmkarlar təşkilatları ilə 50-ə yaxın beynəlxalq tədbirlər keçirilmişdir.[4]

Bu əlaqələrin ən mühüm formalarından biri gənclər arasında nümayəndələr mübadiləsi olmuşdur. Təkcə 1980-1983-cü illərdə dünya

---

[1] XXVI съезд КПСС и актуальные проблемы международных отношений. М.: Международные отношения, 1983. -240 с.

[2] Газета «Бакинский рабочий». 29 сентябрь1983 г.

[3] Газета «Баку», 31 декабрь 1987 г.

[4] Azərbaycan Həmkarlar İttifaqları Şurasının dövrü arxivi. Iş №2, s.4; iş №5,8,11, s.4,12, 21

gənclərinin 1000-dən yuxarı nümayəndə heyəti Azərbaycanda olmuşdur.[1] Azərbaycan və xarici ölkələrin jurnalistləri arasındakı əlaqələrdə də xeyli irəliləyiş baş vermişdir. Məsələn 1980-ci ilin mayında SSRİ Xarici İşlər Nazirliyinin mətbuat şöbəsində qeydə alınan Braziliya, Kanada, Yuqoslaviya, ABŞ, Finlandiya, Çexoslovakiya, İsveç, Yaponiya jurnalistləri Azərbaycanda olmuşlar. ABŞ jurnalistləri David Uoytman və Kristofer Kindental respublikamızın qonağı olmuş, qayıtdıqda «Tayms» jurnalının bir nömrəsini Azərbaycan Respublikasına həsr etmişlər. Həmin ildə Ümumdünya İslam Cəmiyyətinin jurnalı olan «Əlhilal»ın əməkdaşı Türkiyəli jurnalist Saleh Ozcan respublikamızda olmuşdur.[2]

Azərbaycan özünün humanitar sahədə əlaqələrini həmçinin beynəlxalq turizm yolu ilə də inkişaf etdirmişdir. Bu sahədə İnturistin, Sputnik təşkilatının, AXÖDMƏC-in, respublika həmkarlar təşkilatının fəal rolu olmuşdur. Həmin təşkilatların fəaliyyəti nəticəsində təkcə 1980-1985-ci illərdə 200.000-ə yaxın xarici turist Azərbaycanda olmuşdur. 1982-ci ildə dünyanın 42, 1985-ci ildə 40 ölkəsindən Azərbaycana gəlmiş turistlər respublikanın görkəmli yerlərini gəzmiş, zəhmətkeşlərlə görüşlər keçirmişlər.[3] Azərbaycandan gedən turistlər, təxminən, dünyanın 140 ölkəsində olmuşlar. 1981-1985-ci illərdə xarici ölkələrə 651 ixtisaslaşdırılmış turist qrupu göndərilmişdir. 1984-cü ildə dünyanın 55 ölkəsinin turist qrupu respublikamızda, respublikamızın 7 min nümayəndəsi xarici ölkələrdə turist səfərində olmuşlar.[4]

Azərbaycan Respublikasının idman əlaqələri də xeyli genişlənmişdir. Bakı bir sıra beynəlxalq yarışların keçirildiyi yerə çevrilmişdir. Buna, 1981-ci ilin mayında Bakıda dzyu-do üzrə IV Beynəlxalq turnir və sambo üzrə IX Beynəlxalq yarış keçirilməsi sübutdur. Həmin tədbirlərdə Bolqarıstan, Polşa, Fransa, İtaliya, Tunis idmançıları da iştirak etmişlər. 1986-cı ildə isə Bakı-86 beynəlxalq şahmat turniri keçirilmişdir.[5] 1988-ci ildə Azərbaycan şahmatçısı Aynur Sofiyeva Varşavada keçirilən beynəlxalq şahmat turnirində iştirak etmişdir. Sonralar o qızlar və tələbələr arasında dünya çempionu olmuşdur.[6]

---

[1] Azərbaycan Gənclər Təşkilatı Komitəsinin dövrü arxivi. İş №7, s.7-14.
[2] Газета «Вышка». 21 декабрь 1989 г.
[3] Sayadov S.A. XX əsr: Azərbaycan və dünya. Bakı, «Elm», 2006, s. 94-102.
[4] Газета «Бакинский рабочий». 21 сентябрь 1985 г. Газета «Правда».
[5] Azərbaycan Respublikası İdman və Bədən Tərbiyəsi Komitəsinin dövrü arxivi. iş №3, s. 11-12; «Bakı» qəzeti. 23 aprel 1982-ci il.; Газета «Баку». 15 ноябрь 1986г.
[6] Azərbaycan Respublikası İdman və Bədən Tərbiyəsi Komitəsinin dövrü arxivi. iş №3, s. 11-12;

Beynəlxalq problemlərin sülh və əməkdaşlıq ruhunda həlli zamanı Azərbaycan Sülhü Müdafiə Komitəsi, Müharibə Veteranları Komitəsi, Asiya və Afrika ölkələri ilə Respublika həmrəylik Komitəsi, Sülhə Kömək Fondu Komissiyası, həmkarlar təşkilatı orqanları və gənclər təşkilatları da çox işlər görmüşlərdir. Bu məqsədlə sülh və tərksilah uğrunda mübarizə həftələri, nüvə silahına qarşı mitinqlər, sülh və müharibə problemlərinə həsr olunmuş yığıncaqlar, istehsalatda sülh əmək növbələri və konfranslar keçirmişlər. 1987-ci il mayın 2-də yenə burda «Gülüstan» sarayında nüvə silahının qadağan olunması probleminə həsr olunmuş Beynəlxalq konfrans keçirilmişdir. BMT-nin Tərksilah Tədqiqatları İnstitutu tərəfindən keçirilən bu konfransda 28 ölkənin nümayəndəsi iştirak etmişdir.[1]

**Nəticə**. Azərbaycan Respublikasının beynəlxalq humanitar əlaqələri XX əsrin 80-ci illərində mövcud olmuş və elmi planda araşdırılması bir daha sübut edir ki, Azərbaycan cəmiyyətinin humanitar fəaliyyəti bütün dünyada sülh prinsiplərinin və ideyalarının tərəfdarı kimi çıxış etmişdi. Bununla bərabər respublikanın beynəlxalq humanitar əlaqələrində çoxlu nöqsan və qüsurlar da özünü göstərmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1. "Azərbaycan Beynəlxalq münasibətlər sistemində (Əməkdaşlıq və tərəfdaşlıq)". GDU-nun Elmi əsərlər məcmuəsi, №VII. Bakı, "Nurlan", 2004, s. 89 - 90.
2. "Azərbaycan - Türkiyə humanitar əlaqələri (XX əsrin 80 – ci illəri)". GDU-nun Professor – müəllimlərin, aspirant və gənc tədqiqatçıların elmi konfransının materialları. Bakı, "Nurlan", 2005, s. 78 – 80.
3. "Azərbaycan beynəlxalq əlaqələr meridianlarında". ADPU-nun "Xəbərləri", Bakı, 2007, .№ 4, s. 130 – 140.
4. "Beynəlxalq aləmdə humanitar münasibətlər və Azərbaycan elmi (XX əsr: 80 – ci illər)". ADPU-nun Xəbərləri, Bakı, 2007, .№ 4, s. 189 – 198.
5. "XX əsrin 80-ci illərində beynəlxalq humanitar əlaqələrdə Azərbaycan və YUNESKO".BDU."Tarix və onun problemləri". Bakı, 2009, №1-2. s.158–180.
6. "Beynəlxalq humanitar proseslər və onun ictimai–siyasi əsaslarının formalaşmasında Azərbaycan milli potensialı (80 – ci illər)". BDU-nin. 90 illik yubileyinə həsr olunmuş xüsusi buraxılış. Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, № 3. Bakı, 2009, s. 271 – 280.

---

[1] «Kommunist» qəzeti. 5-7 iyun 1987-ci il.

7. “Азербайджан – Россия: международные связи (1991-2008 г.г.): политикоправовой аспект”. «Пробелы в российском законадательстве». Юридический журнал. Москва, 2009,№3,с.198-201.
8. “XX əsrin 80- ci illərində beynəlxalq münasibətlər və sülhün qorunmasında Azər-baycan SSR- nin humanitar potensialının rolu”. Doktorantların və gənc tədqiqatçıların XIV respublika elmi kofransının materialları. Bakı, ADPU nəşriyyatı, 2010, s.82 – 84.
9. “Azerbaıjan SSR and humanitarian connections between USA the 20 centurıes in 1980”. Georgian foundation for development of scıences and socıety. İnternational scıentific journal, 2 (37). Tbilisi, 2010, p.58 – 60.
10. “The international relations and the role of humanitarian potentials of Azerbaijan SSR in the protection of peace”. Telavis saxelmwifo univer-siteti. samecniero Sromebis krebuli Telavi State University. TRANSACTİONS # 1, 2010, p. 49- 65.
11. “SSRİ-nin xarici siyasətinin formalaşmasında Azərbaycan SSR-nin rolu və iqtisadi əlaqələri (XX-əsrin 80 – ci illəri)”. GDU. Elmi Xəbərlər. Gəncə, 2010, Fundamental, humanitar və təbiət elmləri seriyası №3, s. 131–140.
12. “Azərbaycan rəssam, memar və heykəltaraşı beynəlxalq meridianlarda (XX əsrin 80 – ci illəri)”. BSU., GDU. “Azərbaycanşünaslığın aktual problemləri”. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş II Beynəlxalq elmi konfransın materialları, I hissə. Bakı-Gəncə, 4-7 may, 2011, s. 555-559.
13. “Azərbaycan SSR Həmkarlar Təşkilatları İttifaqının beynəlxalq fəaliyyəti (XX əsrin 80 – ci illəri)”. GDU. Elmi Xəbərlər. Gəncə, 2011, Fundamental, humanitar və təbiət elmləri seriyası №1, s. 80-84.
14. “Universal Fraternized Cities Federation and Azerbaijan Cities (The 80s of the 20$^{th}$ century)”. International Symposium Folklore and Linguo-Culturologiya of the Caucasian Peoples, Materials, Tbilisi 2012, p. 298-301
15. “XX əsrin 80- ci illərində Beynəlxalq humanitar əlaqələrin inkişafı prosesində Azərbaycanın tanıdılmasında xarici mətbuatın və turizmin yeri”. Qafqaz Universiteti - Azərbaycan xalqının Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 90- illiyinə həsr edilmiş Gənc tədqiqatçıların I Beynəlxalq elmi konfransın materialları. Bakı,25-26 aprel 2013,.s.147-148.
16. “XX əsrin 80-ci illərində dünya gəncləri Azərbaycanda”. GDU, Elmi Xəbərlər. Gəncə, 2013, Fundamental, humanitar və təbiət elmləri seriyası №4, s. 258-262.
17. “Art of Azerbaijan in the 80 years of the twentieth century”. Гилея (научной вестник), Национальный Педогогический Университет им. М.П. Драгоманова, Академия Наук Украйны, Киев, 2014, Выпуск 81 (№2), с. 148-152.

**И.А.ИСМАИЛОВ**

**АЗЕРБАЙДЖАНСКАЯ ССР В СИСТЕМЕ МЕЖДУНАРОДНЫХ ГУМАНИТАРНЫХ ОТНОШЕНИЙ (80-е годы XX века)**

# РЕЗЮМЕ

В диссертации исследуется участие Азербайджанской ССР в системе международных гуманитарных отношений в 80-ые годы XX века. Исследования охватывают историю Азербайджана в Советский период.

Диссертация состоит из введения, пяти глав и списка использованной литературы и других ресурсов.

В ведении отражается актуальность проблемы, уровень, цели и задачи исследования, источник, научное новшество, теоретические и методологические основы и практическая значимость.

В первой главе диссертации под названием «Международные отношения, роль гуманитарного потенциала в его развитии и СССР в 80-ые годы XX века» рассматривается развитие международных отношений, а также роль гуманитарных связей и место СССР в этих отношениях.

Во второй главе данной диссертации под названием «Место национального потенциала Азербайджанской ССР и увеличение его доли в международных гуманитарных отношениях» участие Азербайджана в развитии международных гуманитарных отношений.

В третьей главе под названием «Роль научных мыслей Азербайджанской ССР в формировании гуманитарных отношений и их интеллектуальной базы в международной сфере» исследуются отношения в сфере науки и образования.

В четвертой главе, которая называется «Место культурного потенциала Азербайджанской ССР в расширении культурной базы гуманитарных процессов» исследовалось участие национальной культуры Азербайджанской ССР в международных гуманитарных отношениях.

В пятой главе под названием «Роль потенциала Азербайджанской ССР в формировании международных гуманитарных процессов и их общественно-политических основ» исследовалось общественно-политический потенциал Азербайджанской ССР в международных гуманитарных отношениях в 80- ые годы XX века.

В заключении дан обобщенный анализ значения роли Азербайджанской СССР в международных гуманитарных отношениях в 80-ые годы XX века. В диссертации отражается последовательное решение положенных задач.

**I.A.ISMAILOV**

## THE AZERBAIJAN SSR IN THE SYSTEM OF INTERNATIONAL RELATIONS (IN THE 80S OF THE 20$^{TH}$ CENTURY)

# SUMMARY

In the dissertation the participation of Azerbaijan SSR in the international relations in the 80s of the twentieth century is explored. It covers the history of the Azerbaijan Soviet period.

The introduction to the Dissertation consists of five chapters, the result, used literature and the list of references.

In the “Introduction", the actuality of the issue, the problem of the study, the purpose and objective of the research, the source study database, scientific innovation, theoretical and methodological basis, and the theoretical and practical importance are provided.

In the first chapter, called "The international relations in the 80s of the twentieth century, the role of the human potential in its development and the USSR," the international relations, the role of the human relations in its development and the place of the USSR in these relations have been studied.

In the second chapter of dissertation, called "The International humanitarian relations, and the location of the national potential of Azerbaijan SSR in its expansion", the participation of Azerbaijan in the development of international relations is investigated.

In the third chapter, called "The human relations in the international arena, and the role of the scientific thought of the Republic of Azerbaijan in the formation of its intellectual base" the relations of science and education have been studied.

In the forth chapter, called " The location of the cultural potential of the Soviet Socialist Republic of Azerbaijan in the expansion of the moral basis of the humanitarian processes developing in the world", the contribution of the national culture of Azerbaijan SSR to the development of the international relations in the 80-s of XX century and its role in the relations among the countries and peoples in the international arena are investigated.

In the fifth chapter called “International Human processes and the role of the potential of Azerbaijan SSR in the formation of its social- political basis”, the attendance of Azerbaijan with its social- political potential in the human relations of the USSR as a part of it is investigated.

Consequently, the total investigation of the role of Azerbaijan SSR in the human relations in the 80s of the 20$^{th}$ century and the consequence of the fulfillment of the goals of dissertation and the main generalization are shown.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

**ИСМАИЛ АКИФ оглы ИСМАИЛОВ**

# АЗЕРБАЙДЖАНСКАЯ ССР В СИСТЕМЕ МЕЖДУНАРОДНЫХ ГУМАНИТАРНЫХ ОТНОШЕНИЙ
**(80-е годы XX века)**

**Специальность: 5503.02 - Отечественная история**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**

**доктора философии по истории**

**БАКУ – 2014**